# İNGİLTƏRƏNİN GEOSİYASİ MARAQLARINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN YERİ VƏ AZƏRBAYCANA TƏSİRİ (1917-1920)



(BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA)


EMİN ARİF (ŞIXƏLİYEV)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ
TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA İNSTİTUTU

EMİN ARİF (ŞIXƏLİYEV)

# İNGİLTƏRƏNİN GEOSİYASİ MARAQLARINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN YERİ VƏ AZƏRBAYCANA TƏSİRİ (1917-1920)

## (BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA)

NAXÇIVAN – 2016

*Emin Arif (Şıxəliyev) 1975-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olmuşdur. 1992-2004-cü illərdə (1 il türkcə hazırlıq kursu da daxil) bakalavr, magistratura və doktorantura olmaqla üç pillədə Ankara Universitetinin Dil və Tarix-Coğrafiya fakültəsində təhsil almışdır. Hal-hazırda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Qafqaz tarixi" şöbəsinin müdiri vəzifəsində çalışan Emin Arif, eyni zamanda Naxçıvan Dövlət Universiteti Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsində "Beynəlxalq münasibətlər tarixi" fənnini də tədris etməkdədir. 4 kitabın, 100-ə yaxın elmi məqalənin müəllifidir. Türkiyədə, İranda, Rusiyada, Almaniyada keçirilən elmi konfransların iştirakçısı olmuş, İngiltərənin Milli Arxivlərində* ***(The National Archives of United Kingdom)*** *elmi araşdırmalar aparmışdır.*

*Elmi redaktor:* **İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü*

*Rəyçilər:* **Musa Qasımlı**
*Tarix üzrə elmlər doktoru, professor*

**Nigar Gözəlova**
*Tarix üzrə fəlsəfə doktoru,*
*dövlət mükafatı laureatı*

**Emin Arif (Şıxəliyev).**
**İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, 144 s.**

**e-mail: emin.amea@yahoo.com**

Əsərdə XX əsrin əvvəllərində "erməni məsələsi"nin İngiltərənin geosiyasi planlarında tutduğu yerdən, Birləşmiş Krallığın Xarici İşlər Nazirliyi, Hərbi Kabineti, Ali Baş Qərargahı, Hərbi Kəşfiyyat Xidməti və s. qurumlar tərəfindən qəbul edilən qərarlarla külli miqdarda maliyyə vəsaitinin, müxtəlif silah və sursatların ermənilər üçün təmin edilməsindən bəhs edilmiş, bu yardımların pərdə arxası səbəblərinə açıqlıq gətirilməyə çalışılmışdır. Böyük Britaniyanın arxiv materiallarından əldə olunan materiallara əsasən müəyyənləşdirilmişdir ki, qarşılıqlı istifadə münasibətləri çərçivəsində formalaşan ingilis-erməni əməkdaşlığı Azərbaycanın bir çox bölgəsində fəlakət mənbəyi olaraq ortaya çıxmış və minlərlə müsəlman türk əhalisinin qətlə yetirilməsinə səbəb olmuşdur.
Kitab müvafiq profil üzrə mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir - Qrant № EİF/MQM-3-Shusha-2014-7(22)-05/01/5**

4700000000
053-2016

© "Əcəmi" 2016.

# MÜNDƏRİCAT

* Giriş .......................................................................................................... 6

* İngiltərənin geosiyasi planlarında "erməni məsələsi"nin yeri .............. 9

* "Erməni dövləti"nin yaradılması planının və ermənilər
tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı
cinayətlərinin pərdə arxası.............................................................................. 18

* İngiltərənin gizli planlarında Naxçıvanın yeri ........................................ 40

* İngilis ordusunun Qafqazdan çıxması və əsas nəticələri ........................... 49

* Nəticə ........................................................................................................ 57

* Əlavələr....................................................................................................... 61

* Ədəbiyyat ................................................................................................. 130

# GİRİŞ

Böyük Güclərin geosiyasi maraqlarının toqquşması kontekstində "erməni məsələsi"nin yeri, bu dövlətlərin siyasətlərinə uyğun olaraq silahlandırılan və güc qazanan ermənilər tərəfindən gerçəkləşdirilən kütləvi qırğınların mahiyyətinin araşdırılması, rəqabət və təhriklər nəticəsində ortaya çıxan problemin Azərbaycan üzərindəki ağır nəticələrinin xarici mənbələr və arxiv materialları əsasında aşkara çıxarılaraq təhlil edilməsi son dərəcə elmi, siyasi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, ermənilər XX əsrin əvvəllərində özlərinin soyqırımına məruz qaldıqlarını önə sürərək, bütün dünyada bu iddianın təbliğatını aparırlar. Halbuki tarixi sənədlər bu iddianın tam əksini sübut etməkdə və ermənilərin Azərbaycan, eyni zamanda Şərqi Anadoluda soyqırımı gerçəkləşdirdiklərini ortaya qoymaqdadır. Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində **(The National Archives of United Kingdom)** yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun Böyük Güclər, xüsusilə də İngiltərə üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur.

Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Çünki Qərb dünyasında ermənilər və onların havadarları istər Azərbaycan, istərsə də Türkiyədəki materialların obyektiv deyil,

tərəfli olduğu yönündə təbliğat aparmaqdadırlar. Əlbəttə, Azərbaycan və Türkiyə arxivlərində yer alan materiallar tarixi həqiqətlərin ortaya çıxmasında böyük önəmə sahibdir, lakin obyektiv dəyərini qoruması baxımından məsələnin başlıca olaraq Böyük Britaniyanın arxiv materialları əsasında tədqiq edilməsinin daha faydalı olacağı qənaətindəyik. Ermənilər tərəfindən törədilən cinayətlərin Azərbaycan və Türkiyə arxivlərində yer alan sənədlər əsasında isbatının Qərb ictimaiyyətində o qədər də inandırıcı olmadığını nəzərə alaraq və ya belə düşünərək, reallıqların məhz İngiltərə arxivlərindəki sənədlərə söykənərək aşkara çıxarılmasını qarşıya qoyduq. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir. Düşünürük ki, erməni iddialarına tutarlı şəkildə cavab vermənin, əsas olaraq da dünya ictimaiyyətinə həqiqətləri çatdırmağın yolu digər materiallarla birlikdə, Böyük Britaniyadakı arxiv sənədlərinə də müraciət etməkdən keçir.

Arxiv materialları ilə yanaşı rus, ingilis, türk, erməni alimlərinin və rəsmi nümayəndələrin tarixi sənəd mahiyyətindəki əsərlərinə də geniş yer verilmişdir. Hesab edirik ki, əldə edilən materialların təhlili Böyük Güclərin, xüsusilə İngiltərənin erməni məsələsi ilə bağlı siyasətinin müəyyən cəhətlərini yenidən gözdən keçirməyə, eyni zamanda XX əsrin əvvəllərində Cənubi Qafqazda apardığı siyasəti səciyyələndirən məqsəd və mahiyyətini daha geniş şəkildə anlamağa imkan yaradacaqdır.

Bu işin ərsəyə gəlməsində böyük rolu olan Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fonduna, arxiv materiallarının əldə edilməsində verdiyi məlumatlara və tövsiyələrə görə Atatürk Universitetinin dosenti, görkəmli tədqiqatçı Tolqa Başaka minnətdaram. Çünki həqiqətən də mövzu ilə bağlı İngiltərənin Milli Arxivlərində yer alan fondların yeri əvvəlcədən müəyyənləşdirilmədiyi təqdirdə lazım olan sənədləri tapmaq olduqca çətindir. Bununla yanaşı, Londonda apardığım tədqiqatlar əsnasında göstərdikləri xoş münasibət və yardımlarından dolayı İngiltərə Milli Arxivinin əməkdaşlarına, eyni zamanda Londonda qaldığım müddət içərisində diqqətlərini məndən əsirgəməyən AZAL-ın Böyük Britaniya və ABŞ üzrə rəsmi nümayəndələri Kamran Qacara və Elnur Şəfiyevə də öz dərin təşəkkürlərimi bildirirəm. Və təbii ki, arxiv materiallarının toplanılması və belə br tədqiqat əsərinin hazırlanması üçün məni həmişə motivasiya edən "İrs" jurnalının baş redaktoru, tarix üzrə fəlsəfə doktoru Musa Mərcanlıya da öz minnətdarlığımı bildirirəm.

# İNGİLTƏRƏNİN GEOSİYASİ MARAQLARINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN YERİ VƏ AZƏRBAYCANA TƏSİRİ (1917-1920)

*"...Bizim siyasətimiz ermənilər türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır..."*

**Arnold Josef Tonbi**

*"...Türklərin Panturanist arzularına qarşı baryer olması üçün erməni dövlətinin qurulmasını istəyirik..."*

**Lord Kerzonun İngiltərənin Hərbi Kabinetinin Şərq Komitəsinin 2 dekabr 1918-ci il tarixli 40-cı iclasındakı çıxışından**

*"...Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar..."*

**Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci il dekabr tarixli memorandumundan**

*"...Türkiyə ilə Türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir..."*

**Lord Kerzon**

*"...Ermənistan dövlətinin yaradılması Antantanın müharibə məqsədlərindən biridir..."*

**Artur Ceyms Balfur**

acəmi
ƏCƏMİ NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİ